Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“07” mart 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 11

**AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ**

**ÖDƏNİŞ XİDMƏTLƏRİ VƏ ÖDƏNİŞ SİSTEMLƏRİ ÜZRƏ FƏALİYYƏTƏ NƏZARƏT VƏ SİYASƏT DEPARTAMENTİ HAQQINDA**

# Ə S A S N A M Ə

**B A K I – 2024**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Ödəniş xidmətləri və ödəniş sistemləri üzrə fəaliyyətə nəzarət və siyasət departamenti (bundan sonra - Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, İdarə Heyətinin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində fəaliyyətini Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə əlaqələndirir.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi ödəniş sistemləri və ödəniş xidmətləri sahəsində inkişaf və tənzimləmə siyasətinin müəyyən edilməsi, ödəniş təşkilatları, elektron pul təşkilatları, ödəniş sistemləri operatorlarının lisenziyalaşdırılması və fəaliyyəti üzərində nəzarətin həyata keçirilməsi, ödəniş bazarının sabitliyinin və dayanıqlığının təmin edilməsi, habelə ölkədə rəqəmsal ödənişlərin inkişaf etdirilməsinin dəstəklənməsindən ibarətdir.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. ödəniş xidmətləri, ödəniş alətləri, ödəniş əməliyyatları ilə bağlı normativ-metodoloji sənədlərin hazırlanmasının və təkmilləşdirilməsinin təmin edilməsi;

3.2. ödəniş təşkilatları, elektron pul təşkilatları və ödəniş sistemləri operatorlarının (bundan sonra - təşkilatların) fəaliyyətinin tənzimlənməsi üzrə normativ-metodoloji sənədlərin hazırlanması, davamlı olaraq bazar şərtlərinə və beynəlxalq təcrübəyə uyğun olaraq təkmilləşdirilməsi;

3.3. qanunvericiliyə uyğun olaraq təşkilatlara lisenziya və icazələrin verilməsi üçün

müraciətlərə baxılması və əlaqədar tədbirlərin görülməsi, lisenziya və icazələrin reyestrinin aparılması;

3.4. təşkilatların fəaliyyəti üzrə risk-əsaslı nəzarətin həyata keçirilməsi və nəzarət çərçivəsinin beynəlxalq təcrübə əsasında davamlı təkmilləşdirilməsi;

3.5. ölkədə rəqəmsal ödənişlərin, innovativ ödəniş alətlərinin istifadəsinin genişləndirilməsi üzrə inkişaf strategiyasının hazırlanması və icrasının təşkil edilməsi;

3.6. təşkilatların fəaliyyətinin operativ və dövri məlumatlar əsasında təhlil edilməsi və nəticə hesabatlarının hazırlanması;

3.7. Mərkəzi Bankın fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq hüquqi aktlara və metodoloji sənədlərə aidiyyəti üzrə rəy və təkliflərin verilməsi;

3.8. Departamentin büdcə layihəsinin hazırlanması və icrasının təmin edilməsi;

3.9. Departamentin fəaliyyət istiqamətləri üzrə digər mərkəzi banklar, beynəlxalq təşkilatlar, müvafiq yerli və xarici təşkilatlarla əməkdaşlıq edilməsi;

3.10. Departamentə aidiyyəti üzrə daxil olan müraciətlərə baxılması, məktub və sorğulara cavabların hazırlanması;

3.11. rəhbərliyin tapşırığı ilə Departamentin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı şöbələrdən ibarətdir:

4.1.1. Ödəniş xidmətləri və ödəniş sistemlərinin inkişafı və siyasəti şöbəsi;

4.1.2. Ödəniş xidmətləri və ödəniş sistemlərinin fəaliyyətinin tənzimlənməsi şöbəsi;

4.1.3. Ödəniş xidməti təchizatçılarına və ödəniş operatorlarına nəzarət şöbəsi.

4.2. Departamentin fəaliyyətinə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətləri direktor müavininə (olduqda) həvalə edilir, bu şərtlə ki, rəhbərlik tərəfindən direktor vəzifəsinin icrası şöbə rəislərindən birinə və ya digər şəxsə həvalə edilməsin.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən və ya İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin və vəzifədən azad olunurlar.

## 5. DEPARTAMENTİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

**5.1. Ödəniş xidmətləri və ödəniş sistemlərinin inkişafı və siyasəti şöbəsi:**

5.1.1. rəqəmsal ödənişlərin əhatə dairəsinin genişləndirilməsi üzrə inkişaf istiqamətlərini müəyyən edir, bu istiqamətdə tədbirlərin icrasını və koordinasiyasını həyata keçirir;

5.1.1. Milli Ödəniş Sisteminin inkişaf layihələrini hazırlayır və tədbirlərin icrası və koordinasiyasını həyata keçirir;

5.1.2. səlahiyyəti daxilində ölkədə nağdsız hesablaşmaların təşkili, habelə ödəniş sistemlərinin fəaliyyəti üzrə normativ-metodoloji bazanın yaradılması və təkmilləşdirilməsi ilə bağlı normayaratma fəaliyyətini həyata keçirir;

5.1.3. ödəniş sistemləri və ödəniş alətləri üzrə nəzarət konsepsiyasını hazırlayır, bu istiqamətdə beynəlxalq qəbul edilmiş standartların, təcrübələrin təhlilini aparır, tətbiqi imkanlarını qiymətləndirir və dəyişikliklər üzrə təkliflər hazırlayır;

5.1.4. Mərkəzi Bankın operatoru olduğu ödəniş sistemləri üzrə tətbiq edilən tarifləri, habelə banklararası interçeync tariflərinin təhlil edir və təkliflər hazırlayır;

5.1.5. ödəniş alətlərindən istifadə zamanı fırıldaqçılıq hallarının qarşısının alınması istiqamətində aidiyyəti qurumlarla birlikdə tədbirlər həyata keçirir;

5.1.6. ödəniş sistemləri üzrə göstəricilərin təhlillərini aparır və nəticəsi barədə müxtəlif hesabatlar hazırlayır (yarımillik və illik icmalllar, rüblük, aylıq hesabatlar);

5.1.7. ölkə daxilində emissiya edilmiş ödəniş kartları ilə xidmət mərkəzləri arasında aparılan ödəniş əməliyyatları üzrə yaranan mübahisəli hallarda arbitraj proseduru zamanı araşdırmanın aparılmasında və tərəflər arasında qarşılıqlı öhdəliklərin müəyyən edilməsində iştirak edir;

5.1.8. rəqəmsal ödənişlər üzrə maliyyə savadlılığının artırılması sahəsində tədbirlərin həyata keçirilməsinə dəstək verir;

5.1.9. Departamentin fəaliyyət istiqamətlərinə uyğun olaraq xarici ölkələrin mərkəzi bankları, müvafiq yerli və xarici təşkilatlarla əməkdaşlıq edir;

5.1.10. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.2. Ödəniş xidmətləri və ödəniş sistemlərinin fəaliyyətinin tənzimlənməsi şöbəsi:**

5.2.1. təşkilatların fəaliyyəti üzrə normativ-metodoloji bazanın yaradılması və təkmilləşdirilməsi ilə bağlı normayaratma fəaliyyətini həyata keçirir;

5.2.2. beynəlxalq təcrübə əsasında təşkilatların fəaliyyəti üzrə prudensial tənzimləmə və statistik hesabatlıq normalarının müəyyən edilməsi üzrə təkliflər hazırlayır;

5.2.3. nəzarət subyektlərinin fəaliyyətinin həyata keçirilməsi ilə bağlı lisenziya və icazələrin alınması üçün təqdim olunan sənədlərin uçotunu aparır, ekspertizasını həyata keçirir və lisenziya və icazələrin verilməsi ilə əlaqədar müvafiq tədbirlər görür;

5.2.4. lisenziya üçün müraciət edən hər bir hüquqi şəxsin benefisiar mülkiyyətçilərinin, rəhbər şəxslərinin və sahəvi qanunla nəzərdə tutulmuş digər şəxslərinin məqbul və lazımi keyfiyyətlərə malik olub-olmamasını müstəqil və etibarlı mənbələr əsasında yoxlayır;

5.2.5. qanunvericiliyə uyğun olaraq mühüm iştirak payının əldə edilməsi ilə bağlı müraciətlərə baxır, habelə mühüm iştirak iştirak payının əldə edilməsinə yönəldilən vəsaitin mənbəyi haqqında sənədləri yoxlayır və aidiyyəti struktur bölmələrdən rəy alır;

5.2.6. zərurət olduqda lisenziya və icazə almaq istəyən hüquqi şəxslərin nizamnamə kapitalının mənbəyinin araşdırılması ilə əlaqədar müvafiq orqanlara sorğu göndərir və əldə edilmiş məlumatları müqayisəli təhlil edir;

5.2.7. təşkilatların lisenziya və icazələrin verilməsi ilə bağlı sorğularını cavablandırır;

5.2.8. ödəniş təşkilatları və elektron pul təşkilatları tərəfindən cəlb edilən ödəniş agentləri üzrə müraciətləri təhlil edir və müvafiq rəylər hazırlayır;

5.2.9. təşkilatlar və ödəniş agentləri üzrə reyestrləri aparır;

5.2.10. təşkilatların, habelə milli poçt operatorunun ödəniş həllərinin təhlilində iştirak edir;

5.2.11. Departamentin fəaliyyət istiqamətlərinə uyğun olaraq xarici ölkələrin mərkəzi bankları, müvafiq yerli və xarici təşkilatlarla əməkdaşlıq edir;

5.2.12. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.3. Ödəniş xidməti təchizatçılarına və ödəniş operatorlarına nəzarət şöbəsi:**

5.3.1. təqdim olunmuş hesabatlar və digər nəzarət məlumatları əsasında təşkilatların fəaliyyətinin qanunvericiliyin və normativ xarakterli aktların tələblərinə riayət edilməsinə nəzarət edir, nəticəsi üzrə müxtəlif hesabatlar hazırlayır və rəhbərliyə təqdim edir;

5.3.2. ödəniş sistemlərinin davamlı və etibarlı fəaliyyətinə nəzarət edir, bu istiqamətdə baş vermiş insidentlərin qiymətləndirilməsini həyata keçirir;

5.3.3. nəzarət çərçivəsində müəyyən edilmiş nöqsan və çatışmazlıqlarla bağlı qanunvericiliyə uyğun olaraq təşkilatlara icrası məcburi olan göstərişlərin verilməsi, habelə təsir və təshih tədbirlərinin göstərilməsinə dair təkliflər hazırlayır;

5.3.4. qanunvericiliyə uyğun olaraq, habelə icrası məcburi göstərişlərin icra vəziyyətinin yoxlanması məqsədilə yerində (on-site) yoxlamalar və/və ya digər nəzarət tədbirlərini həyata keçirir, müəyyən edilmiş hallarla əlaqədar müzakirələr təşkil edir və hesabatlar hazırlayır;

5.3.5. tətbiq olunmuş təsir və təshih tədbirləri barədə təşkilatlardan daxil olmuş sorğulara dair rəy hazırlayır;

5.3.6. təşkilatların audit rəyi və kənar audit hesabatlarını öz səlahiyyəti daxilində təhlil edir, zəruri hallarda təhlil nəticələrini təşkilatlarla və audit şirkətlərinin nümayəndələri ilə müzakirə edir;

5.3.7. təşkilatlardan hesabat və nəzarətlə bağlı mənbəyi məlum olan digər məlumatları toplayır və təhlil edir;

5.3.8. Mərkəzi Bankın operatoru olduğu ödəniş sistemlərinin, habelə digər ödəniş sistemlərinin bu sahədə qəbul olunmuş beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi məqsədilə "özünüqiymətləndirmə"sini aparır, çatışmazlıqlar üzrə tədbirlər planı tərtib edir və icrasına nəzarət edir;

5.3.9. təşkilatlar tərəfindən göstərilən xidmətləri istehlakçıların hüquqlarının qorunması baxımından qiymətləndirir, zəruri olduğu təqdirdə təkliflər hazırlayır və bazar davranışlarına nəzarəti həyata keçirir;

5.3.10. öz səlahiyyəti daxilində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı hallar aşkar etdikdə, bu barədə aidiyyəti struktur bölməyə məlumat verir;

5.3.11. nəzarət üzrə istifadə edilən informasiya sistemlərinin fəaliyyətini təmin edir və inzibatçılığını həyata keçirir, nəzarət alətlərinin tələblərinə uyğunlaşdırılması, informasiya sistemlərinin təkmilləşdirilməsi üzrə təkliflər verir, müvafiq texniki tapşırıqlar hazırlayır;

5.3.12. zəruri hallarda, prudensial normativlərin və tələblərin təkmilləşdirilməsi, habelə təşkilatlar tərəfindən Mərkəzi Banka təqdim olunan hesabatların optimallaşdırılması ilə bağlı təkliflər hazırlayır;

5.3.13. Departamentin fəaliyyət istiqamətlərinə uyğun olaraq xarici ölkələrin mərkəzi bankları, müvafiq yerli və xarici təşkilatlarla əməkdaşlıq edir;

5.3.14. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏA

Bu Əsasnamə təsdiq olunduğu gündən qüvvəyə minir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**